**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MAYKL MURKOK YARADICILIĞINDA MİFOLOJİ ZAMAN VƏ GERÇƏK DÜNYA

İxtisas: 5718.01 – "Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Coşqun Dadaş oğlu Dadaşov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Dünya ədəbiyyatı və nəzəriyyəsi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
**Həmidə Əhməd qızı Əliyeva**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səadət Xalid qızı Abdurəhmanova**

filologiya üzrə fəlsəfə doktoru
**Xumar Vəliyəddin qızı Abdullayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor

______________ **Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri doktoru, dosent

______________ **Aysel İlqar qızı Məmmədbəyli**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor

______________ **Şahin Həmid oğlu Xəlilli**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Dillər Universiteti Publik Hüquqi Şəxs • Ministry of Science and Education of the Republic of Azerbaijan Azerbaijan University of Languages • Public Legal Entity

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mifoloji zaman başlanğıc, ilkin zaman, dünyanın yarandığı, sakral zaman mənasını daşıyan, real və tarixi zamandan əvvəlki dövrə aid edilən zaman anlayışıdır[1]. Mifoloji zamandakı hadisələr hər kəslə bağlı olur və hər zaman baş verir. Bu onunla izah olunur ki, mifik dünyadakı mütləq sonluq, mütləq başlanğıcdır. Mifoloji zaman gerçək tarixə çevrilmək üçün daima təkrarlanır və hər təkrarda olanların yenidən qayıdışını təmin edir. A.Hacılı yazır ki, dərk olunan dünya *"zahiri qavrayışda məkan və zaman, daxili ruhsal aləmdə isə zaman şəklində əyan olur, mifik məfkurədə keçmiş və gələcək indiki zamanla qovuşuqdur, hadisələr sanki zamandan kənarda inkişaf edir"*[2]. Başqa sözlə, zaman və tarix biri-biri ilə bağlı olan qapalı dairədir. Mifoloji düşüncədə yalnız indiki zaman mövcuddur və bu indiki zamanda keçmiş, gələcəkdə isə indiki zaman öz ifadəsini tapır.

Qeyd edilən fikirləri əsas götürərək belə nəticəyə gəlmək olar ki, mifoloji zaman keçmişin, indinin və gələcəyin eyni zaman kəsiyi ilə əlaqəsidir. Məhz bu xüsusiyyətlər mifoloji zamanı sakral zamana çevirir və yazıçılar mifoloji zamana üz tutarkən bütün bu cəhətləri nəzərə alırlar. O da qeyd edilməlidir ki, bədii ədəbiyyat mifin birbaşa təcəssümü deyil, lakin onun yenidən təfsiri, bədii əsərlərin təşkili üsuludur.

Müasir ingilis yazıçısı Maykl Murkok (Michael Moorcock, 1939) yaradıcılığında folklor-mifoloji köklərə qayıdış, dünya modelinin universallığı, ikili reallıq və zamana səyahət mövzuları yer alır. Onun "Melnibonedən olan Elrik" ("The Elric of Melnibone", 1961-2022), "Dorian Hokmun" ("The Dorian Hawkmoon", 1967-1975), "Erikoze" ("Erekose", 1970-1987), "Qılınclar trilogiyası" ("The Swords Trilogy", 1971-1974) romanlar silsiləsində mifik-sakral zamanla tarixi zaman bir arada çıxış edir, amma bütün hallarda mifik zaman insan ruhunun əbədi olması ideyasını daşıyır. Roman qəhrəmanları tarixi zamanda birxətli həyat yaşasalar da, əslində

---

[1] Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. – М.: «Советская Энциклопедия», – 1991. – 310 с.
[2] Hacılı, A. Mifopoetik təfəkkür fəlsəfəsi / A.Hacılı. –Bakı: Mütərcim, – 2002. – s.31

keçmiş təcəssümlərinin reinkarnasiyası, silsiləvi zamanda növbə ilə yeni bədənlərdə doğulur, yeni adlarda əbədi hadisələri təkrarlayırlar.

M.Murkok romanlarında taleyin, ruhun dəyişməzliyi ideyası əsaslandırılır. Onun romanlarında mifoloji zaman silsilə prinsipi ilə hərəkət edir və A.Losevin təbiri ilə desək *"zaman axınında səbəb və nəticə ayrılmır, çünki zaman axınının özü mifologiyada həm səbəb, həm də məqsəd olan ayrılmaz bütövlük kimi təsəvvür edilir"*[3].

M.Murkok bəşəri, ilahi və mifoloji təbiətə dair suallar vermək üçün həm fantaziyadan, həm də mifdən yararlanır və bu şəkildə əsərlərində bədii gerçəkliyi genişləndirir, mifoloji zamanla gerçək dünyanı bir araya gətirir. Yazıçı qədim miflərə, mifoloji düşüncəyə müraciət edir, mifik zamanı müasirliyə köçürür, onu tarixi zaman kontekstində izah edir. Bu səciyyəvi xüsusiyyət M.Murkok yaradıcılığının ana xəttini təşkil edir və onun əsərlərində mifin təfsiri və yenidən dərki müstəvisində mifoloji zaman anlayışına aydınlıq gətirir. M.Murkok yaradıcılığı bir tərəfdən gerçəkliyin fövqəltəbii mahiyyətini inkar edən müasir inanclar sisteminə, digər tərəfdən isə dünyanın yaranması haqqında qədim təsəvvürlərə söykənir. Bu onunla bağlıdır ki, müasir mif ideal gələcəyə, qədim miflər isə ideal keçmişə yönəlmişdir. M.Murkok müasir oxucu tərəfindən yaxşı tanınan obyektiv reallığı fövqəltəbii detallarla tamamlamaq üçün fantastik və mifoloji elementlərdən istifadə edir. M.Murkok qədim miflərə, mifoloji düşüncəyə əsaslanır və mifik dünyanın qanunauyğunluqlarını tarixi gerçəklik timsalında izah edir.

Məlumdur ki, fantastik əsərlərdə dünya modeli qapalıdır və zaman bu dünyada ikili xarakter daşıyır, həm mifik, həm də tarixi zamana ayrılır. Mifik keçmiş ilkin zamanı xarakterizə edir və bu dünya başlanğıcı, harmoniyanı, insanın Tanrı ilə bir arada olmasını təcəssüm edir. Elə bu səbəbdən o qapalı bir zamandır, daha çox əsatir və miflərdə canlanır. Tarixi zaman isə indiki zaman, əsərdəki hadisələrin zamanıdır və mifik zamandan fərqli olaraq düzxətli, empirik və itib gedəndir. Amma o da məlumdur ki, empirik zaman bir qayda olaraq müasirlikdən uzaqdır və adətən mistik tarixi zaman, qəhrəmanların şər qüvvəsi ilə mübarizəsini ehtiva edən epik zamandır. Başqa sözlə, epik zaman şər ilə

---

[3] Лосев, А.Ф. Античная философия истории. / А.Ф.Лосев. – М.: Наука, – 1977. – с.33

xeyrin əbədi döyüşünü canlandıran zamanın təcəssümüdür. Məhz elə bu səbəbdən onun təsviri epik ciddiliyi ilə seçilir. Mifoloji zamanın ilkin dünyası ideal haqqında xatirələrdir və M.Murkok romanları bu baxımdan zamanı yenidən yaşamaq fürsətini önə çəkir. Onun romanlar silsiləsində də biz idealın itirilməsi, eyni zamanda da dünyanın yaranmasının sakral dövrünü görə bilirik.

Deməki olar ki, keçmiş zaman mifik dünyada həmişə indiki zamana təsir edir. Zaman anlayışı isə bir qayda olaraq bu tip əsərlərdə silsiləvi xarakter daşıyır. Qəhrəmanın davranışları, onun söykənə biləcəyi ideallar qəhrəmanlıq eposları, cəngavər romanları ilə bağlı olduğu kimi, yazıçının fəlsəfi-əxlaqi görüşləri ilə də bağlıdır. Bu baxımdan M.Murkokun yaradıcılığı xüsusi maraq doğurur. Qərb ədəbiyyatşünaslığında geniş şəkildə öyrənilən yazıçının yaradıcılığı ilə bağlı tədqiqatları iki qrupa bölmək olar. Bir qrup onun əsərlərini elmi fantastika janrı, digərləri yalnız fentezi janrı müstəvisində öyrənirlər. K.Qrinland[4] E.M.Batler[5], R.Letem[6] M.Murkok yaradıcılığında daha çox elmi fantastika izlərini axtarır və təhlillərini bu yöndə aparırsa, E.Flud[7], F.M.Magill[8], D.Harris-Feyn[9], M.Killcoy və K.S.Robinson[10] M.Murkokun romanlarını fentezi ilə əlaqələndirməyə çalışırlar. Bu bölgünü əsas gətirərək qeyd etməliyik

[4] Greenland, C. The Entropy Exhibition: Michael Moorcock and the British “New Wave” in Science Fiction. / C.Greenland. – Routledge: Kegan Paul Books Ltd., – 1983. – 244 p.

[5] Butler, A.M. Thirteen Ways of Looking at the British Boom: [Electronic resource] // Science Fiction Studies, – 2003. №91, Volume 30, Part 3. URL: https://www.depauw.edu/sfs/pioneers/butler91.htm

[6] Latham, R.A. Cyberpunk and the New Wave: Ruptures and Continuities // New York Review of Science Fiction, 2007. 19(10), 1. (No. 226), –p.14-17.

[7] Flood, A. New Michael Moorcock novel to combine autobiography and fantasy: [Electronic resource] // The Guardian. – 2015, 18 Feb. URL: https://www.theguardian.com/books/2015/feb/18/michael-moorcock-new-novel-the-whispering-swarm.

[8] Magill, F.N. Survey of Modern Fantasy Literature. / F.N.Magill. – Salem Press, – 1983. – 540 p.

[9] Harris-Fain, D. British Fantasy and Science Fiction Writers Since 1960. / D.Harris-Fain. – Gale Research Inc. – 2002. – 427 p.

[10] Killjoy, M., Robinson, K.S. Mythmakers and Lawbreakers: Anarchist Writers on Fiction. / M.Killjoy, K.S.Robinson. – AK Press, – 2009. – 140 p.

ki, M.Murkok yaradıcılığının ayrı-ayrılıqda fərqli xüsusiyyətləri araşdırılsa da, onun əsərlərində mifoloji zaman məsələləri elmi nəzəri problem kimi sistemli və əsaslı tədqiqata cəlb edilməmişdir.

Zaman bəşəri təfəkkürün universal anlayışıdır. O gerçək və bədii dünyanın xüsusiyyəti, reallığı dərk etmə və əks etdirmə üsulu kimi müasir ədəbiyyatşünaslıqda böyük əhəmiyyət kəsb edir. Bədii zaman müəyyən dövr insanının dünyagörüşünü, davranışını ən uyğun şəkildə xarakterizə edir və ədəbi əsərin qurulması və onun dərk edilməsinin bir vasitəsidir.

Beləliklə, görmək olur ki, M.Murkok yaradıcılığının bir sıra aspektlərdə öyrənilməsinə baxmayaraq, onun əsərlərində mifoloji zaman və gerçək dünya problemi öyrənilməmiş olaraq qalır. İndiyədək M.Murkok yaradıcılığında bədii zamanın xüsusiyyətləri nəzərə alınmadan təhlil edilmiş, bu baxımdan əsərlərinin təfsir imkanları məhdudlaşdırılmışdır. Məhz bu səbəbdən M.Murkok əsərlərinin semantik strukturuna nüfuz etmək mümkün olmamışdır. Halbuki bu problem M.Murkokun müəllif konsepti olan "Multidünya" modelinin yaradılmasında mühüm rol oynayır.

M.Murkok bədii ədəbiyyata "Multidünya" və ya "Sonsuz dünyalar", "Əbədi Döyüşçü" terminlərini gətirir və çoxsaylı dünyaları olan sonsuz kainatın sirlərini daşıyan ruhun əbədiliyindən, taleyin təkrarlanmasından bəhs edir. Kitabdan kitaba adlayan bütün qəhrəmanlar bir bütövlüyün fəlsəfəsi olan Əbədi Döyüşçünün bir obrazdan təkrar-təkrar digərinə keçidini təcəssüm edir. Onların hər biri mifoloji dünyanın sakini olsalar da, yeni dünyanın nizamına uyğunlaşırlar. M.Murkokun qəhrəmanları əksər hallarda Xaos və Kosmos arasındakı ziddiyyət ətrafında dövr edirlər. Bu çevrədə nə pis, nə də yaxşı var, lakin maraqların toqquşması, müxtəlif baxış bucaqları və daima fikir mübadiləsinə yol açan mənəvi qarşıdurma – insan idrakının nisbiliyi, şərtiliyi və subyektivliyi diqqət mərkəzində dayanır. M.Murkokun müəllif konseptinin mükəmməlliyi, hər şeydən əvvəl, taleyi ölümlə sona yetən, bütün mümkün reallıqlarda və dünyalarda təkrarlanmağa məhkum olan Əbədi Döyüşçü ideyası ilə bağlıdır.

Sonsuzluqda mövcud olan dünyalardan hər birinin öz qanunları, öz tarixi var və bu dünyalar əbədi sonsuzluğa bağlı ayrı-ayrı kainatları təcəssüm edir. Bu sanki biri-biri ilə bağlı olan milyard

illərin bir araya gəlməsi, amma eyni zamanda da öz qanunları ilə inkişaf edən əbədi yolçuluğa bənzəyir. M.Murkok göyləri yerə endirir, ərzani həyatı səmavi prinsiplər əsasında qurmur, həmin həyatı adi insani istəklər əsasında təqdim edir. Mükəmməl insan olmaq istəyən mifoloji qəhrəmanı müəllif tanrıların oyuncağı kimi təqdim edir, amma eyni zamanda İlahi ruhun yerinə insan zəkasını, tanrı xofunun yerinə insan sevgisini, insan iradəsini önə çəkir.

Zaman anlayışının xüsusiyyətləri ilə bağlı bir sıra tədqiqat işləri, o cümlədən, monoqrafiya və dərsliklər yazılmışdır. Həmin müəlliflər sırasında M.M.Baxtin[11], M.Eliade[12], Y.M.Meletinski[13], S.Y.Neklyudov[14], Y.M.Lotman[15], H.Meyerhoff[16], T.M.Allen[17], M.Karri[18] və başqa tədqiqatçıların adlarını çəkmək olar. Onların apardığı araşdırmalar zaman anlayışının öyrənilməsi üçün vacib nəzəri baza formalaşdırır. Azərbaycan ədəbiyyatşünaslığında Muxtar Kazımoğlunun[19] "Folklorda zaman və məkan (Zəngəzur nümunələri

---

[11] Бахтин, М.М. Формы времени и хронотопа в романе // Вопросы литературы и эстетики. / М.М.Бахтин. – Москва: Художественная литература, – 1975. – 504 с.

[12] Элиаде, М. Время и вечность в индийской мифологии // Миф и вечность. Исследование мифологии в «Эраносе».– Москва: Касталия, – 2018. –340 с.

[13] Мелетинский, Е.М. Время мифическое // Мифы народов мира: Энцик–лопедия. – Москва: – 1980. Т.1. – с.252-253; Мелетинский, Е.М. Поэтика мифа. / Е.М.Мелетинский. – Москва: «Восточная литература» РАН, –2000. – 407 с.

[14] Неклюдов, С.Ю. Поэтика эпического повествования: пространство и время. /– С.Ю.Неклюдов. – Москва: Форум, – 2015. – 215 с.

[15] Лотман, Ю.М. Структура художественного текста. / Ю.М.Лотман. – Москва: «Искусство». – 1970. – 385 с.

[16] Meyerhoff, H. Time in Literature. / H.Meyerhoff. – University of California Press, – 1990. – 160 p.

[17] Allen, T.M. Time and Literature. / T.M.Allen. – Cambridge University Press . – 2018. – 352 p.

[18] Currie, M. About Time: Narrative, Fiction and the Philosophy of Time. / M.Currie. – Edinburgh University Press, – 2007. – 176 p.

[19] Kazımoğlu (İmanov), M. Folklorda zaman və məkan (Zəngəzur nümunələri əsasında) // Zəngəzur folkloru: milli-mədəni düşüncə və çağdaş elmi yanaşmalar / M.Kazımoğlu (İmanov). – Bakı: Elm və təhsil, – 2022. – 269 s.; Kazımoğlu (İmanov), M. Folklor həm keçmiş, həm də bu gündür. Məqalələr. / M.Kazımoğlu (İmanov). – Bakı: Elm və təhsil, – 2014. – 194 s.; Kazımoğlu, M. Folklorda obrazın ikiləşməsi. Monoqrafiya. / M.Kazımoğlu. – Bakı: "Elm" nəşriyyatı, – 2011. – 228 s.

əsasında)", "Folklor həm keçmiş, həm də bu gündür", "Folklorda obrazın ikiləşməsi", Asif Hacılının[20] "Zaman və onun poetik-mifik dərki", Füzuli Bayatın[21] "Epik zaman və məkan problemi (Dədə Qorqud boyları əsasında)", Ramazan Qafarlının[22] "Mifoloji kontinuum (məkan-zaman sistemi) daxilində vəhdət – xronotoplar" tədqiqatları folklorda zamanın xüsusiyyətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Lakin qeyd etməliyik ki, indiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında aparılan araşdırmalarda zaman anlayışı folklorşünaslıq sahəsində öyrənilsə də, bu problem bədii ədəbiyyat müstəvisində sistemli şəkildə araşdırılmamışdır. Dissertasiyada ilk dəfə ingilis yazıçısı M.Murkok yaradıcılığında mifoloji zaman və gerçək dünya məsələləri ətraflı təhlil edilmiş, Azərbaycan ədəbiyyatı ilə paralellərin müəyyənləşdirilməsi fonunda bu problemə aydınlıq gətirilmişdir. Bu baxımdan milli ədəbiyyatımızın nümunələrini ingilis ədəbiyyatı ilə müqayisə etmək ədəbiyyatşünaslığımız üçün mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda tədqiqat mövzumuz müasir ədəbiyyatşünaslıqda öz aktuallığını və əhəmiyyətini qoruyan zaman anlayışının daha geniş araşdırılmasına əsas verir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini M.Murkok yaradıcılığının əsasını təşkil edən "Melnibonedən olan Elrik", "Dorian Hokmun", "Erikoze", "Qılınclar trilogiyası" romanlar silsiləsi, predmeti isə yazıçının romanlarında mifoloji zaman və gerçək dünya məsələlərinin tədqiqi və onların təzahür formalarının müəyyənləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi M.Murkok romanlarında mifoloji zaman və gerçək dünya probleminin inikas xüsusiyyətlərini araşdırmaq təşkil edir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri reallaşdırmaq nəzərdə tutulur:

---

[20] Hacılı, A. Zaman və onun poetik-mifik dərki // Mifopoetik təfəkkür fəlsəfəsi. – B.: Mütərcim, – 2002. – s.31-49.

[21] Bayat, F. Epik zaman və məkan problemi (Dədə Qorqud boyları əsasında) // – Bakı: Dədə Qorqud. Elmi-ədəbi toplu, – 2002. №1, – s.28-41.

[22] Qafarlı, R. Mifoloji kontinuum (məkan-zaman sistemi) daxilində vəhdət – xronotoplar // – Bakı: Dədə-Qorqud. Elmi-ədəbi toplu, – 2015. №3, – s.18-29.

– M.Murkok yaradıcılığının spesifik xüsusiyyətlərinə aydınlıq gətirmək;

– M.Murkokun romanlarında Skandinav miflərinin resepsiyasını dəyərləndirmək;

– M.Murkok romanlarının mifoloji sistemində arxetipik obrazları təyin etmək;

– M.Murkok fentezisini postmodernist təhkiyənin tərkib hissəsi kimi öyrənmək;

– M.Murkok yaradıcılığında müasir fentezinin modifikasiyasını müəyyən etmək;

– M.Murkok romanlarında Multidünya və ya Sonsuz dünyalar sisteminin şərhini vermək;

– M.Murkokun bədii dünyasında ikili reallıq və zamana səyahət məsələlərini magik realizmin xüsusiyyəti kimi öyrənmək;

– M.Murkokun "Melnibonedən olan Elrik" və K.Abdullanın "Sehrbazlar dərəsi" romanlarında magik realizmi müqayisəli-tipoloji aspektdə təhlil etmək.

**Tədqiqat metodları.** Dissertasiyada müqayisəli-tarixi, struktur-semantik tədqiqat metodlarından istifadə edilərək mifoloji zamanın xüsusiyyətləri öyrənilmişdir. Eləcə də, Azərbaycan və dünya ədəbiyyatşünaslığında əldə olunan elmi nəticə və təcrübələrdən istifadə edilmiş, təhlillər və müşahidələr ümumiləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– M.Murkok yaradıcılığının spesifik xüsusiyyətlərindən biri mifoloji köklərə əsaslanmaqdır və bu səciyyəvi xüsusiyyət onun yaradıcılığında davamlı xətt üzrə inkişaf edir;

– Skandinav miflərindən götürdüyü mövzunu M.Murkokun fərqli planda işləməsi onun yaratdığı dünya modelinin mahiyyətini müəyyənləşdirən başlıca məsələlərdən biri kimi ortaya çıxır;

– M.Murkok romanlarının mifoloji sistemində Əbədi Döyüşçü arxetipinin transformasiyası mifoloji qəhrəmanın yeni adda və yeni görkəmdə xeyir və şər arasındakı sonsuz sayda döyüşlərində qabarıq şəkildə özünü göstərir;

– Fentezi və postmodernist əsərlərdə qəhrəman fərdiliyi deyil, daha çox ideyanı təcəssüm edir. M.Murkokun da yaratdığı bədii

aləmdə reallıqdan qaçış həyati vacib məsələlərə münasibəti dəyişir, amma bu qaçış reallıqla əlaqənin itirilməsinə gətirib çıxarmır;

– M.Murkok “Ana London” romanında avtobioqrafik janrla alternativ sənədli oçerki bir araya gətirməklə fentezi janrını yeni müstəviyə çıxarır, subyektiv insan hisslərini obyektiv hadisələrlə əlaqələndirir, obyektiv hadisələri isə insan təcrübələrindən doğan yaddaş kimi təqdim edir;

– M.Murkokun Multidünya və ya Sonsuz dünyalar sistemi insan arzularına sığmayan, lakin əbədi ikən mövcud olan dünya modelidir. Yazıçının bədii təsvirində empirik zamana sığmır, sakral dünyaya aid olur. Bu dünyaya yalnız əməlisaleh insanlar düşə bilir. Saflığın, hüzurun, əmin-amanlığın obrazı olaraq yazıçı tərəfindən yaradılan dünya özünəməxsus bədii model kimi ortaya çıxır;

– M.Murkokun romanları əbədi və daima təkrarlanan zamanla empirik zamanın kəsişdiyi reallıqla bağlıdır. Bu səbəbdən zamana səyahət qəhrəmanları heyrətləndirmir, bir zamandan digərinə keçid dünyanın təbii qanunlarına müdaxilə kimi görünmür. İkili reallığın mövcudluğu gerçəyi silsiləvi və çoxölçülü zamanda, empirik zamanı isə uydurulmuş dünyada təkrarlayır;

– K.Abdullanın “Sehrbazlar dərəsi” romanı Şərq sufizmindən, M.Murkokun “Melnibonedən olan Elrik” romanı isə Qərb mistikasından gələn motivləri əks etdirməklə Xeyirlə Şərin əbədi döyüşünü, bu döyüşlərin biri-birini əvəz etdiyini və eyni zamanda da gerçək dünyada əbədi olaraq bir yerdə yaşamasını göstərir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə M.Murkok romanlarında mifoloji zaman və gerçək dünya probleminin qoyuluşu və onun həlli ilə bağlıdır. M.Murkokun yaratdığı mifoloji sistemdə ikili reallıq və zamana səyahət, müasir fentezi və magik realizm məsələlərinin öyrənilməsi də bu sırada yer alır. Bununla yanaşı qeyd edilməlidir ki, M.Murkok yaradıcılığı ədəbiyyatşünaslığımızda heç bir sistemli elmi araşdırmanın obyekti olmamışdır və ilk dəfə olaraq bu dissertasiyada əhatəli şəkildə tədqiqata cəlb edilmişdir.

Azərbaycan ədəbiyyatşünaslıqda ilk dəfə olaraq, M.Murkok və K.Abdulla yaradıcılığının müqayisəli-tipoloji aspektdə araşdırılması da öz növbəsində dissertasiyanın elmi yeniliyini təşkil edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti dissertasiyada ilk dəfə müəyyən edilən məsələlərin yeni araşdırmalarda nəzəri qaynaq kimi istifadə imkanları ilə şərtlənir. Praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, mövzu ilə bağlı sistemli tədqiq və təhlillər əsasında əldə edilən elmi nəticələrdən ali məktəblərin bakalavr və magistr pillələrində tədris prosesi zamanı M.Murkok yaradıcılığının öyrənilməsində, bütövlükdə dünya ədəbiyyatının tədrisi sahəsində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada əldə edilən elmi nəticələr, nəzəri ümumiləşdirmələr məqalə və tezislər şəklində AAK-ın müəyyən etdiyi Azərbaycanın və xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap edilmiş, respublika və beynəlxalq konfranslarda məruzələr şəklində təqdim edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Dünya ədəbiyyatı və nəzəriyyəsi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya Giriş, hər biri üç paraqraf olmaqla üç fəsil, Nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın Giriş hissəsi – 8 səhifə, 14026 işarə, I fəsil – 30 səhifə, 58699 işarə, II fəsil – 29 səhifə, 55758 işarə, III fəsil – 44 səhifə, 83709 işarə, Nəticə – 3 səhifə, 4606 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 216798 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri təsbit edilir, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, müdafiəyə çıxarılan müddəalar, tədqiqat işinin aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **“Maykl Murkok yaradıcılığında mifoloji reminissensiya”** adlanan I fəslinin ***“M.Murkok yaradıcılığının spesifik xüsusiyyətləri: mədəniyyətin mifoloji köklərinə qayıdış”***

adlı ilk paraqrafında M.Murkok yaradıcılığının spesifik xüsusiyyətləri müəyyən edilir və onu şərtləndirən amillər – mifoloji qaynaqları şərh edilir.

M.Murkok romanları əsasən german-skandinav mifologiyasının reprezentasiyası, məlum folklor nümunələrinin yenidən işlənməsi ilə əlamətdardır. Bunlara german mifologiyasına əsaslanan müəllif mifləri ilə reallığa yaxın olan mifoloji “gerçəkliyin” şəkil dəyişməsi də demək olar. Onun yaradıcılığında folklor-mifoloji köklərə qayıdış deyəndə miflərlə yanaşı folklorun nağıl janrını da unutmamalıyıq. Onları süjet xəttindəki sehrli, sirli atributlar, cadu, tilsim, folklordan gəlmə möcüzəli, mistik personajlar, xeyirlə şərin, həyatla ölümün, qaranlıqla işığın mübarizəsi kimi oxşar bədii qaynaqlar birləşdirir. M.Murkok romanlarında qədim ingilis, şotland və irland nağıllarının əfsanəvi, möcüzəli varlıqları olan əjdaha, at, ilan obrazlarına da rast gəlinir. M.Murkokun romanları nağıl dünyasında olduğu kimi sehrdən, möcüzədən yan keçmir, “Melnibonedən olan Elrik” romanının qəhrəmanı Elrikin sehrli və möcüzəli atı da, sehrli dünyaya aid əjdaha ilə döyüşü də nağılı xatırladır. “Qılınclar trilogiyası” (“The Swords Trilogy”) romanında şahzadə Korum üçbaşlı ilanla döyüşür, “Qılıncdakı əjdaha”da (“The Dragon in the Sword”) Erkize tilsimli quş sürüsünə qalib gəlir, bir diyardan digərinə köç edən, şər qüvvələrin fantastik gücünü daşıyan quşların ölkədə qalmasına mane olur, onları ölkəsindən qova bilir.

Fentezi janrının xalq nağıllarına yaxınlığını nəzərə alaraq onu deyə bilərik ki, yazıçının reallıqla uydurmanı bir araya gətirən roman dünyası magiyanı, uydurmanı və eyni zamanda da real olanla ağlasığmazı birləşdirmək gücündədir. M.Murkokun fentezi janrında yazdığı romanlar nağıl yaratmaq ideyasına yox, nağıl dili ilə gerçəkliyi əks etdirmək ideyasına xidmət edir. “Linton əjdahası” adı ilə tanınan şotland rəvayətlərindəki cəngavər lord Laristonun ikibaşlı əjdaha ilə döyüşləri M.Murkokun “Arzular şəhəri” (“The Dreaming City”) romanına köçürülür, qəhrəmanın döyüşdüyü əjdaha Linton əjdahası ilə oxşarlıq təşkil edir.

İngilis, şotland və irland rəvayətləri M.Murkokun fentezi janrında aydın şəkildə özünü göstərir. Bu, ilk növbədə, onunla əlamətdardır ki, fentezi janrı daha çox folklorun nağıl, mif,

rəvayətləri ilə bir arada addımlayır, süjet və motivləri ondan mənimsəyir. Lakin bu janrın səciyyəvi xüsusiyyəti fərqlidir, yazıçı təxəyyülünə söykən əhvalatlar müəllifə aid bir dünyanı təqdim edir.

***“M.Murkok romanlarında Skandinav miflərinin resepsiyası”*** paraqrafında qeyd edilir ki, yazıçının mifologiyaya müraciəti ədəbiyyatda ən çox yayılmış üsullardandır. Belə əsərlərdə yalnız mifoloji personajlar deyil, eyni zamanda mifin süjeti də iştirak edir. Nəticədə mövzusu miflə bağlı olan əsərlər yaranır və bu əsərlərin özəlliyi müəllifin və mifik düşüncənin sintezi olan ideyaların daha dərin məna kəsb etməsinə yol açır. Skandinav mifologiyasından istifadə bəzi əsərlərdə şifrələnmiş müəllif mesajlarının daha dərindən dərkinə yol açır.

“Qılınclar cəngavəri” (“The Knight of the Swords”) romanında Xaos Hökmdarı döyüşdə Nizam Tanrısına qalib gəlir, onun hakimiyyətini ələ alır, özünəməxsus reallıq yaradır və Nizam Tanrısının himayə etdiyi qədim irqləri məhv edir. Şahzadə Korum öz xalqını, ailəsini, evini itirir. Şər qüvvəsi Ariohun əmri ilə onun nəsli yer üzündən silinir, özü isə eybəcər hala salınır. Sol biləyinin və sağ gözünün yoxluğu ona daha böyük güc və qüvvə nəsib edir: sehrbazlar ona məğlub olmuş tanrıların bədən hissələrini verir[23].

Korumun görünüşü insandan daha çox skandinav miflərindəki elflərə bənzəyir. Onun uzunsov kəllə quruluşu, böyük qulaqları, bəbəksiz işıq saçan gözləri var. Onu digər M.Murkok qəhrəmanlarından fərqli edən kəsilən əli və yanmış gözü onu mübarizə aparmaqdan çəkindirmir. Skandinav mifologiyasında tanrıların yaşadığı və tanrı Odinin başçılıq etdiyi yuxarı dünya – Asqard müxtəlif aləmlərdən biridir. Mifologiyaya əsasən bu aləmlərdə tanrıların yaşadığı Asqardla bərabər insanların da yaşadığı orta dünya – Midqard və ölülər dünyası Hel, nəhənglərin və elflərin yaşadığı dünyalar da yer alır[24].

M.Murkokun Nizam diyarı adlandırdığı Tanelorn skandinav mifologiyasındakı Asqardı xatırladır. Tanelornda hökm sürən harmoniya ilkin insanın tanrılar aləmi haqqında təsəvvürləri ilə üst-

---

[23] Moorcock, M. The Knight of the Swords. / M.Moorcock. – L.: Ace. – 1987. – 176 p.
[24] Старшая Эдда: [Электронный ресурс] / Дополнительные песни, пер. А.И.Корсуна. URL: https://norroen.info/src/edda/korsun.html

üstə düşür. Digər tərəfdən bu aləmdə yaşayan tanrıların da xüsusiyyətləri M.Murkokun qəhrəmanlarına köçürülür. “Qılınclar cəngavəri” romanındakı şahzadə Korum yuxarı, orta və ölülər dünyasını gəzir, müxtəlif dünyalardan keçir, sonda əbədi Nizam diyarı Tanelorna gəlib çatır. M.Murkokun qəhrəmanı müxtəlif sınaqlardan çıxır, ona bəxş edilən sehrli qılınc və tanrılardan qopmuş hissələrin gücü ilə qələbə çalmağa nail olur. Yazıçı skandinav mifologiyasında zəfər, döyüş və müdriklik tanrısı Odin ilə yanaşı, fırtına-ildırım tanrısı Tor, müharibə tanrısı Tyur, tanrıların və dünya ağacının qoruyucusu tanrı Heymdallı da roman dünyasına köçürür.

Baş tanrı Odinin tək bir gözü var. O, öz taxtında oturub Asqardı və Midqardı izləyir, yeri gələndə qartala dönüb dünyaları seyr edir. Şahzadə Korum da tək gözlüdür. Əgər tanrı Odin gözünü müdriklik qazanmaq üçün fəda edibsə, şahzadə Korumun gözü şər qüvvələr tərəfindən çıxarılıb, amma yerinə ona hər şeyi görə bilən tanrı gözü bəxşiş edilib.

Şahzadə Korum digər mifik tanrı Tyurun da xüsusiyyətlərini özündə birləşdirir. Skandinav mifologiyasında tanrı Tyurun tək qolu var. Asqard tanrıları nəhəng canavar Fenriri sehrli zəncirlə bağlamağa qərar verəndə Tyur qolunu itirir. Mifə görə canavar özünü azad etmək istəyəndə Tyurun biləyini qoparır. M.Murkokun qəhrəmanı da tək qoldur. Sehrbazın ona bəxş etdiyi ilahi qüvvəyə malik qolun gücü düşmənə qarşı amansız davranışında, döyüşlərdəki şücaətində özünü göstərir.

M.Murkok yaradıcılığında skandinav miflərinin resepsiyası mövzusunun öyrənilməsi onu göstərir ki, M.Murkok skandinav mifologiyasından yararlanır və mifik dünyanın personajlar aləmini, miflərin mövzu xüsusiyyətlərini fentezi janrına köçürür. Biz bunu qəhrəmanların təsvirində, davranışlarında, ətrafa olan münasibətlərində görə bilirik. Bu sıraya dünyalararası savaşlar, tanrılar aləmi və Raqnarökun baş verdiyi motivlər də aiddir.

***“M.Murkok romanlarının mifoloji sistemində arxetipik obrazlar: Əbədi döyüşçü arxetipinin transformasiyası”*** adlanan üçüncü paraqrafda M.Murkok romanlarının mifoloji sistemində arxetipik obrazlar müəyyən edilir və bu obrazlar mifoloji reminissensiya kimi öyrənilir.

M.Murkokun yaradıcılığı mifoloji arxetiplərlə bağlıdır. Bu ilk növbədə, onun yaratdığı mifik dünyanın sakinləri olan Əbədi Qəhrəman, Qəhrəmanın Əbədi Düşməni və ya Lənətlənmiş Silah (eyni zamanda da Qara Qılınc), kainatın mərkəzində yerləşən Şəhər və s. arxetipik obrazlarla həmahəng səslənməsində ortaya çıxır. O da qeyd edilməlidir ki, bütün mifoloji arxetiplər öz növbəsində uğursuz axtarışlar aparan, müxtəlif ad altında çıxış edən qəhrəmanları müşayiət edir.

M.Murkok ədəbi arxetiplərin köməyi ilə dərin ruhani Kosmosu, çoxşaxəli və bənzərsiz dünya modelini, ədəbi prosesə təsir edən bədii planet anlayışını ortaya qoymuşdur. Bu planetin sakinləri əbədi əzaba məhkum olan qəhrəman arxetipini önə çəkir. Elrik obrazı romandan romana adladıqca qələbə qazanır, amma hər qələbənin arxasında əzab və acı çəkən qəhrəman dayanır. O, güclüdür, ağıllıdır, müdrikdir, amma hər dəfə nə isə baş verir, nə isə çatışmır. Korum isə fiziki cəhətdən qüsurlu olsa da, dəmir əli və tək gözü ilə düşmənə qarşı döyüşür, qələbə qazanır, lakin sona qədər əbədi tənhalığa məhkumdur.

M.Murkokun Əbədi Qəhrəmanı adi insan həyatını yaşamaq niyyətindədir. Amma tale onu hər dəfə Əbədi Düşmənlə döyüşə girməyə məcbur edir. M.Murkokun müəllif konsepsiyasının mahiyyəti də bundan ibarətdir: Əbədi Qəhrəman hər dəfə ölüb-dirilir və müxtəlif əsər qəhrəmanları kimi döyüşür. Bu sıraya Elrik, Korum, Erkize, Houkmun və digərləri aiddirlər.

M.Murkokun Əbədi Döyüşçülərindən biri "Qılınclar trilogiyası"nın qəhrəmanı Korumdur. Korum özündə ədəbi arxetipi – Əbədi Qəhrəmanı daşıyır. M.Murkokun yaratdığı bədii dünyada Əbədi Qəhrəmanı səsləyən bir nizam, harmoniya mövcuddur. Lakin bu dəfə Nizam Keşikçiləri Xaos Hökmdarına uduzur və Xaos dünyanı idarə edir. Elə bu zaman Şər hökmdarı Arioh tərəfindən məhv edilən Şahzadə Korum meydana çıxır.

M.Murkok ənənəvi mifik qəhrəman tipini dəyişir, ona gerçək dünya ilə bağlı əlamətlər verir. Onun Elriki xeyrin yanında olduğu kimi şərə də xidmət edir və ya şərin yanında olur. Elə bu səbəbdən o, özündə iki zidd tərəfi birləşdirir. Elrik Əbədi Qəhrəman arxetipi ilə yanaşı Lənətlənmiş Silahın gücünü də daşıyır. M.Murkokun müəllif

konsepsiyasına görə belə davranış məqbuldur, çünki o, özündə mifik qəhrəmanla yanaşı gerçək dünyanın insanına xas xüsusiyyətləri də daşıyır. O, Xaosun nökərlərini cəzalandırır, onları məhv edir. Bu sırada onun ruhuna hakim kəsilən "Qara sehrbaz"ı da dəf edə bilir. M.Murkoka görə, onun davranışları şəxsi təşəbbüsündən qaynaqlanmır, o, yalnız taleyin hökmü ilə hərəkət edir.

M.Murkokun hər iki qəhrəmanı – Elrik və Korum taleyə qarşı çıxır, adi insan həyatını yaşamaq istəyir, öhdələrinə düşən missiyanı yerinə yetirmək istəmirlər. Amma tale Əbədi Döyüşçünün əbədi lənətidir və o, hər dəfə yenidən döyüşmək məcburiyyətində qalır, Xaos Hökmdarına qarşı mübarizə aparır. Sonu olmayan döyüş xeyirlə şərin mübarizəsi şəklində insan övladının alnına yazılan taleyə dönür. M.Murkokun qəhrəmanında Cozef Kempbellin[25] təsvir etdiyi qəhrəmanlıq monomifi açıq şəkildə izlənilir. Yazıçı bu axtarışın mifoloji strukturunu mənimsəmiş və onları öz əsərinə daxil etmişdir. Korumun səyahəti C.Kempbellin "min sifətli qəhrəman"ına əsaslanır. Necə ki, "min sifətli qəhrəman" axtarışın hər mərhələsində öz davranışlarından asılı olaraq fərqli bir taleyi yaşayır, eləcə də, Əbədi Qəhrəman əbədi əzaba məhkumdur. Korum mübarizələrdən qəhrəman kimi çıxır, amma anındaca başqa dünyada və başqa zamanda yeni mübarizələrə sövq edilir.

**"Maykl Murkok yaradıcılığı və müasir fentezi janrı"** adlanan II fəslin ilk paraqrafı ***"M.Murkok yaradcılığında fentezi postmodernist təhkiyənin tərkib hissəsi kimi"*** adlanır. Həmin paraqrafda qeyd edilir ki, fentezi janrının yaranması postmodernizmin formalaşması və təşəkkülü dövrlərinə təsadüf edir. L.Olsen yazır ki, fentezi postmodernizmin ədəbi oxşarıdır[26]. Gerçəkdən də hər ikisinin uydurma və reallığın sərhədlərində dayanması onları bir-birinə yaxınlaşdırır.

Fentezinin bədii dünyasında fantastik, mistik və mifik dünya bir araya gəlir, mifik qəhrəmanlar müasir insanın xüsusiyyətləri ilə çıxış edir. Gerçəkliklə uydurma postmodernist ədəbiyyatda olduğu

---

[25] Kempbell, C. Min sifətli qəhrəman. / C.Kempbell. – Bakı: Qanun Nəşriyyatı. – 2022. – 544 s.

[26] Olsen, L. Ellipse of Uncertainty: An Introduction to Postmodern Fantasy. / L.Olsen. – Praeger, – 1987. – p.126

kimi fentezinin də süjet xəttini təşkil edir. O da qeyd edilməlidir ki, fentezi janrı yarananda daha çox fantastik ədəbiyyatla bir arada addımlayır, süjet və motivləri ondan mənimsəyirdi. Lakin onun səciyyəvi xüsusiyyətləri fərqlidir və yazıçı təxəyyülünə söykənən əhvalatları magik, mistik qüvvələrin köməyi ilə izah edir. Postmodernist bədii nəsrlə fentezinin oxşar vəziyyəti onu deməyə əsas verir ki, postmodernist gerçəkliklə fantastik reallıq qarşılıqlı əlaqədədir və bir bütövü ehtiva edir. Deməк, fantastik reallıq gerçək dünyadan fərqli olan uydurma dünyanın xüsusi bir növüdür.

M.Murkokun yaradıcılığına nəzər yetirdikdə görmək olur ki, onun bir çox romanları fentezi ilə postmodernist təhkiyənin sintezi ilə əlamətdardır. Xüsusilə, yazıçının Cerri Korneliusla bağlı "Yekun proqram" ("The Final Programme"), "Xərçəngin çarəsi" ("A Cure for Cancer"), "İngilis qatili" ("The English Assassin"), "Muzakın halı" ("The Condition of Muzak") romanlarında fentezi ilə postmodernist təhkiyənin bir arada çıxış etdiyini görmək olur: fentezi, detektiv və postmodernist təhkiyənin sintezi adları sadalanan romanların ideya-məzmununu bir araya gətirən özəlliklərdir.

M.Murkokun yaratdığı Cerri Kornelius obrazı fentezi ədəbiyyatının ən gözəl nümunələrindən biridir. Bu obraz özündə rok ulduzunu, dövrün böyük elm xadimini, fiziki, qatili bir araya gətirir və o, sözün əsl mənasında antiqəhrəmandır. Onu həmçinin postmodernizmdən gələn magik, mistik və fantastik təhkiyənin nümunəsi, *"bütünlükdə sehrin və magiyanın, qılınc döyüşlərinin ən əhəmiyyətli müəllifi"*[27]olan M.Murkok yaradıcılığının zirvəsi də hesab etmək olar.

"İngilis qatili" romanı isə apokalipsisin baş verdiyi bir dünyanı əks etdirir. Ölkədə hökm sürən xaos, boş qalan, xarabalığa çevrilən London bütün dəhşəti ilə oxucunun gözü önündə canlanır. Cerri yenə də hadisələrin mərkəzindədir. London göz görə-görə iflasa uğrayır, şəhər əhalisi bitib-tükənməyən konfliktlərə bürünüb. Başqa sözlə, yazıçının yaratdığı mistik, fantastik dünya xaos və absurdun əsil simasını göstərir. "Muzakın halı" romanı apokaliptik öncəgörmə kimi keçmişi unudan, indini və gələcəyi ciddiyə almayan bəşər

---

[27] Scroggins, M. Michael Moorcock: Fiction, Fantasy and the World's Pain. / M.Scroggins. – McFarland and Company, – 2016. – p.43

övladına yollanan xəbərdarlıqdır. M.Murkokun müəllif fantaziyası N.Qəmblın da qeyd etdiyi kimi *"real dünyanın içərisində onun bir hissəsi olan fərqli bir dünya"*[28] modelini yaradır. Heç şübhəsiz, bu dünya fentezi ilə postmodernizmin qarşılıqlı əlaqəsindən yaranır.

Beləliklə, Cerri Korneliusla bağlı romanlar fentezinin təhkiyə strukturunu dəyişməyə, bir deyil bir neçə dünyanın sakini olmaq ideyasının yaranmasına yol açır. Bu isə öz növbəsində postmodernizmin həqiqətin çoxölçülü olması ideyası ilə paralellik təşkil edir.

***"M.Murkok yaradıcılığında müasir fentezinin modifikasiyası"*** paraqrafında yazıçının 1988-ci ildə yazdığı "Ana London" (Mother London) romanı müasir fentezi janrı kimi təhlilə çəkilir. Əsərdəki hadisələr müasir dövrdə baş verir, paranormal və fövqəltəbii hadisələr magik elementlərlə bir arada çıxış edir. Magiya və onun mövcudluğu gözlə görünməyən, bəzən isə başa düşülməyən real dünyada baş verən hadisələrin təsvirinə çevrilir. Bu təsvir keçmişdə baş verən real tarixi hadisələrə işıq salır, keçmişin işığında bu günün gerçəkliyi ortaya çıxır.

London şəhərdən daha çox K.Q.Yunqun kollektiv şüursuzluq təlimini – şüursuz şəkildə ötürülən insan təcrübəsini özündə cəmləşdirən əsər kimi təqdim edilir. London kollektiv şüursuzluğun simvolu kimi "səslənir" və müqəddəs Ananı təcəssüm edir. M.Murkok Londona fərqli gözlə baxır, reallığın və insan duyğularının biri-birindən fərqli görüntüsünü yaradır. Əsər boyu roman qəhrəmanları ilə yanaşı digər yerli sakinlərin də səsləri biri-birinə qarışır, keçmiş və bu günün çulğaşmasında bütöv və monumental London görünür. Görmək çətin deyil ki, M.Murkok magik realizmə müraciət edir. Elə bu səbəbdən London mifik, fantastik məkan kimi bütün dövrləri özünə çəkir. London yaddaşında müharibəni, müharibə sonrası aclıq illərini, yeni islahatlar dövrünü də daşıyır. Gerçəkliyin realist təsviri ilə magik təsvirin çulğaşması fentezi janrını yeni müstəviyə çıxarır. Fentezinin yazıçı təxəyyülünə söykənən əhvalatları gerçək dünya ilə bir araya gəlir, müasir dünyanın problemləri ilə səsləşir. Əsərin qəhrəmanları öz Londonunu yaradır, burada təxəyyül və reallıq bir arada çıxış edir. Bu London rəsmi sənədlərdən və londonlulara təlqin edilən miflərdən çox

[28] Gamble, N. Exploring Children's Literature. / N.Gamble, S.Yates. – SAGE Publications Inc. – 2008. – p.121

uzaqdır: *"Londonu fərqli baxış bucağından öyrənmək olar, lakin o bizə müxtəlif əhval-ruhiyyələrdə və müxtəlif məqamlarda göstərilən insan həyatının ən təsirlisidir. Burada komediya və faciə, gülüş və göz yaşları, sevgi və nifrət, zənginlik və yoxsulluq biri-birinə qarışıb"*[29].

O da qeyd edilməlidir ki, M.Murkok "Ana London" romanında düzxətli tarixi zamanla silsiləvi çoxölçülü zamanı bir araya gətirir, Londonu zamana sığmayan şəhər kimi təqdim edir. J.M.Qanteo yazır ki, *"uca, zamansız və hüdudsuz Londonun imkanlarına əsaslanan bu cür təhkiyə mədəni və etik dəyərlərə söykənən mətn kimi nəzərdə tutulur. Belə təhkiyə daha çox itkilərin, yoxa çıxanların yerinə yaranan boşluqlarla barışmağın çətinliyini önə çəkir, düzxətli zamana müəyyən dərəcədə daha yaxşı nail olmaq üçün silsiləvi və çoxölçülü zamana düşməyin yollarını göstərir"*[30]. Bu şəhər daima öz keçmişini yaşadır, bu günlə görünür və gələcəyə yol açır. Əsəri təhlil edən S.Suomelaya görə *"şəxsi və kollektiv xatirələr və ya hər ikisi bir yerdə Londonu canlı bir şəhər kimi təqdim edir"*[31]. Digər tərəfdən əsər üç personajın qavrayışında "itirilmiş", "unudulmuş" Londonu yenidən bərpa etmək cəhdidir. Hər üçünün bərpa etdiyi London reallığa uyğun gəlməsə də, şəhərin yenidən yaradılması istəyi insan oğlunun əbədi arzularını bir araya gətirir.

II fəslin üçüncü paraqrafında ***"M.Murkok romanlarında mətnin məkan konsepti – Multidünya və Sonsuz dünyalar sistemi"*** adlanır. Bu paraqrafda qeyd edilir ki, M.Murkok yaradıcılığı bir çox dünyəvi maraqların kəsişməsində dayanır və onun irəli sürdüyü Multidünya və ya Paralel Dünyalar sistemi bu baxımdan unikaldır. Multidünya termini ilk dəfə U.Ceymsin "İnanmaq istəyi" əsərində işlədilir, M.Murkok isə öz romanlarında bu anlayışı genişləndirir və

---

[29] Moorcock, M. Mother London. / M.Moorcock. – Scribner. – 2000. – p.67
[30] Ganteau, J-M. "Trauma as the Negation of Autonomy: Michael Moorcock's Mother London" // Ethics and Trauma in Contemporary British Fiction. Ed. Susana Onega and Jean-Michel Ganteau. – Amsterdam and New York: Rodopi. – 2011. – p.36
[31] Suomela, S. Hearing voices of a blitzed city in Michael Moorcock's Mother London. Remembering genius Londini: London writers and the spirit of the city. / S.Suomela. – University of Helsinki, – 2018. – p.158

Multidünya konsepti kimi irəli sürür[32]. M.Murkok Multidünya anlayışını sonralar daha dəqiq detallarla işləyir, paralel dünyaların inanılmaz gözəlliyindən bəhs edir ("Tanelorn axtarışında", "Polad kral", "Qədim Marsın Keyn salnamələri")[33]. Yazıçı "Hokmun salnamələri" romanında Yeri alternativ dünya kimi göstərir, yeni dünyaların varlığından söz açır. Məhz bu alternativ dünyalarda daha gözəl yaşayışın, insan arzularına sığmayan, lakin reallıqda mövcud olan dövlətdən bəhs edir.

M.Murkokun Multidünya konsepti Əbədi Döyüşçü haqqında yazılan əsərlərdə formalaşsa da, roman qəhrəmanları heç də bu dünya quruluşunu təsəvvür edə bilmirlər. Görünür, elə bu səbəbdən M.Murkok Əbədi Döyüşçünün dünyalararası səyahətini əsaslandırmır, yalnız bu dünyaların varlığından bəhs edir. Amma bütün hallarda qəhrəmanlar Multidünyada yerləşən dövlətə can atır, onun sakini olmağa tələsirlər. Qəhrəmanların çatmağa çalışdığı mifik Tanelorn şəhəri dünyanın mərkəzi kimi təqdim edilir: *"Multidünyanın tam mərkəzində, saysız-hesabsız dünyaların, bir-birindən ayrı, saysız-hesabsız kainatların mərkəzində dayanır Tanelorn"*[34].

Tanelorn ideyası kainatın sakral mərkəzi kimi zaman və məkandan kənarda mövcuddur, onun çoxsaylı oxşarları var. Bu şəhərə yalnız əməlisaleh insanlar düşə bilər. Şərə qalıb gəlib, xeyrə dayaq olub, bütün pislikləri keçə bilən insan Tanelornda əbədi hüzur tapır. Elə bu səbəbdən M.Murkok qəhrəmanları ora can atır, Tanelorn sakini olmaq üçün döyüşə girirlər. Digər tərəfdən Tanelorn dünyanın mərkəzi haqqında mifoloji təsəvvürlərə uyğun gəlir. Bu dünyada yaşayan tanrıların xüsusiyyətləri də M.Murkokun qəhrəmanlarına köçürülür. Bu ölkədə Korumun şücaəti nəticəsində Xeyirlə Şərin mübarizəsi sona yetir. Əbədi və sonsuz əmin-amanlıq, hüzur bərqərar olur.

---

[32] Moorcock, M. The Quest for Tanelorn. / M.Moorcock. – Grafton Books, – 1988. –160 p.
[33] Secret Origins of the Multiverse. https://legionofandy.com/2019/08/15-/secret-origins-of-the-multiverse/
[34] Moorcock, M. Phoenix in Obsidian. / M.Moorcock. – Harper Collins Publishers. – 1997. – p.19

Tanelorn M.Murkok yaradıcılığında Multidünyanın mərkəzi kimi təsvir edilsə də, bəzən ideal dünya modeli, bəzən isə insan arzuları kimi də təqdim edilir. Tanelorn əbədiyyətin və dəyişməzliyin, azadlığın və sülhün, saflığın və dürüstlüyün simvolu kimi çıxış edir. Hər kəs onu axtarır, onun uğrunda döyüşür. Əbədi Döyüşçülər – Korum, Erkize, Elrik daima Tanelorna can atır.

M.Murkok ərzani həyatı səmavi prinsiplər əsasında qurmur, onu adi insani istəklər əsasında qələmə alır, mükəmməl insan olmaq istəyən mifoloji qəhrəmanı sadə insan arzuları ilə təqdim edir, İlahi ruhun yerinə insan zəkasını və insan iradəsini ortaya qoyur. Qeyd etməliyik ki, M.Murkokun alternativ dünya modeli bədii universallığa bağlıdır və bu sırada o, nağıl ilə reallığı, mifik düşüncə ilə həqiqəti, fantaziya ilə sənədli faktları bir araya gətirir.

**“Maykl Murkok yaradıcılığında magik realizm”** adlanan III fəsildə ilk olaraq ***“M.Murkok yaradıcılığında magik realizm postmodernist ənənələr müstəvisində”*** təhlilə çəkilir. Məlumdur ki, magik realizmdən gələn fantastik elementlər böyük əsərlərin süjet xəttini təşkil edir. M.Murkok da magik realizm janrında yazan, magik realizm və fentezidə ardıcıl eksperimentlər aparan romançıdır.

Yazıçının Ulrik Bek ilə bağlı silsilə romanlarından olan “Müharibə köpəyi və dünyanın ağrısı” (The War Hound and the World's Pain) əsərində azad fikirli Ulrik Bek şər qüvvəsi olan Lüsiferin sarayında əsirlikdədir. Bu əsirlik onun ruhunun əsriliyidir. Lüsifer ona “dünyanın dərdinə dərman” olan Müqəddəs Graalı tapmağı tapşırır. Beləcə, özü də Tanrı ilə barışmaq, aralarında yaranan soyuqluğu aradan qaldırmaq istəyir. Müqəddəs Graalı tapmaqla Ulrik Bek öz ruhunu xilas edir. Müxtəlif macəralardan sonra məlum olur ki, o, bəşəriyyəti Tanrının köməyi və ya Lüsiferin maneələri olmadan qurtara bilər. Ulrik Bek dərk edir ki, insan oğlu yalnız ağıl və zəka ilə qaranlıqdan çıxacaq. Beləliklə, yazıçı mifik süjet xəttini müasir dünyanın problemlərinə bağlayır, mifik qəhrəmanlar dünyasını müasir dünyaya köçürür. Yazıçının bu şəkildə qurduğu təhkiyə magik realizmin prinsiplərinə əsaslanır, oxucu bəlli olan sehrli, magik atmosferi realist ədəbiyyatın o qədər də göstərə bilmədiyi özəllik kimi dərk edir.

M.Murkokun “Axır Zamandakı rəqqaslar” (The Dancers at the End of Time) trilogiyasında bir sıra motivləri görmək olur ki, biz

onları postmodernizmin problemləri baxımından nəzərdən keçirə bilərik. Bu motivlərdən biri "ölüm" anlayışıdır. "Boş torpaqlar" romanında Cerri ölür, lakin digər romanda heç nə olmamış kimi yaşayır. M.Murkokun trilogiyasında bütün canlılar ölümə məhkumdurlar. Tarixi zamanda insan həyatı daim ölümə yönəlir. Bu postmodernizmdən gələn yoxluq ideyasına əsaslanır. Başqa sözlə, postmodernizmdə həyatın özü gündəlik təfərrüatlar, yuxular və gerçək olmayanlar şəklində təcəssüm olunan bir yoxluqdur. Ölüm isə bu yoxluğun əsasıdır, başqa sözlə, postmodernizmə görə varlıq yalnız bir illüziyadır: Cerri ölümü ciddiyə almır, onu xatırladan işarələrə etinasız yanaşır, ölümün bir illüziya olduğunu bütün varlığı ilə dərk edir. Beləliklə, insan varlığının Heçliyə doğru getdiyini bilir. Bu mənada, M.Murkokun trilogiyasında postmodernizm üçün adi qəbul edilən Heçlik anlayışının öz əksini tapdığını görmək olur. Heçlik insan varlığının, insanlararsı münasibətlərin əsasını təşkil edir. Trilogiyanın demək olar ki, bütün personajları tənhalıqdan, daxili boşluqdan, həyatın mənasızlığından əziyyət çəkirlər. Bu mənasızlıq insan münasibətlərində özünü büruzə verir, hamı bir yerdə mövcuddur, lakin biri-birinə paralel yaşayır. Nəticə insanlararası münasibətlərdə anlaşılmazlığa, tənhalığa gətirib çıxarır. Beləliklə, əsərdə təsvir edilən ölüm motivi ilə yanaşı, Heçlik motivini də görə bilirik. Q.Q.Markesin "Gözlənilən qətlin tarixçəsi" romanında insanın həyatını və iradəsini özünə tabe edən taleyin amansızlığı təsvir edilir, ölüm labüd gerçəklik kimi görünür. Magik realizm üslubunda yazılan bu əsərlər mifik-magik modelə əsaslanır və məlumdur ki, bu tip əsərlərdə personajlar alın yazısından qaça bilmir. Cerri Kornelius da bu taleyi yaşayır, lakin onun özəlliyi ondan ibarətdir ki, yazıçı ona hər dəfə yenidən yaşamaq şansı verir.

***"M.Murkokun bədii dünyasında ikili reallıq və zamana səyahət magik realizmin xüsusiyyəti kimi"*** adlanan ikinci paraqrafda göstərilir ki, möcüzə, sehr və tilsim adi, gündəlik həyatdan çox uzaqda, sirli mühitdə yerləşdiyi halda, M.Murkok möcüzəni gündəlik həyatın ortasına yerləşdirir, bu baxımdan onun möcüzəsi daha sirli görünür. Gerçəklə təxəyyülün bir-birinə nüfuz etməsi M.Murkokun romanlar silsiləsində xüsusi bir effekt yaradır, həyatın ümumi axarına qoşulur. Magik realizmin əsas xüsusiyyətlərindən biri də ikili

dünyanın və ya ikili reallığın olmasıdır. Möcüzə və sirli dünya realizmi şübhə altına alır və əsərin uydurma üstündə qurulmasından xəbər verir. Amma baş verənlər gerçək dünya ilə əlaqəli olduğundan əsər nəticə etibarilə realizmin də xüsusiyyətlərini özündə birləşdirmiş olur. Hər iki vacib prinsip magik realizmin ikili xarakterini şərtləndirir.

"Bütün mahnıların sonu" romanında gerçək dünya mifik dünya ilə bir arada əsərin bədii dünyasını açır. Yuxu ilə reallıq, gerçəklə təxəyyül, magiya ilə elmi nailiyyətlər əsərdə paralel şəkildə iştirak edir. Gələcəyin sakini olan Cerri keçmişi xatirə kimi danışır, yeni postinsan erasını acı gerçəklik kimi dərk edir. Axır zamanda, dünyanın sonunda yaşayan Cerri süni zəka ilə idarə olan robotlar dünyasının sakinidir. Burada cildini dəyişən canlılar, zamana səyahət edən sehrbazlar, keçmişi bu günə və gələcəyə keçirə bilən "üst qüvvələr" yaşayırlar. Onlar ziyafət, toy-bayram içindədirlər, amma bununla belə real insana xas çətinliklər adi bir hal kimi onları da izləyir.

M.Murkokun əsərlərində zaman anlayışı özünəməxsus şəkildə təsvir edilir, zaman sanki yoxa çıxır və ya müvəqqəti sərhədlərini itirir. Əsərin qəhrəmanları zamanı asanlıqla keçə bilir, gerçək dünyanın bütün qanunları pozulur, mifoloji zaman gerçək tarixə dönür və daima təkrarlanır.

M.Murkokun bədii dünyasında tez-tez zaman və məkanın tipik olmayan strukturu önə çıxır. Onun əsərlərində düzxətli zamandan imtina və mifoloji zamanın daima təkrarlanması və qapalı dairənin yaradılması tarixi zaman anlayışını yox edir. Zaman və məkan artıq mövcud olmayanları bir araya gətirir, ölülər və dirilər eyni zamanda bir dünyada yaşayırlar, reallıq üçün şərait yaradan, amma zamanın başqa ölçüləri ilə ölçülən bir mifoloji zamana keçirlər.

M.Murkokun "Qraf Brass" romanının süjet xətti magik elementə çevrilən zamana səyahətlə başlayır. Romanda müxtəlif zamanlar bir arada çıxış edir. Çoxdan dünyadan köçmüş qraf Brassın dünyası ilə onun yerinə keçən şahzadə Dorian Hokmun dünyası ikili reallıq yaradır. Əsərdəki zaman düzxətli hərəkət etmir, elə bu səbəbdən qəhrəmanlar onun içində müxtəlif istiqamətlərdə sərbəst davranırlar. M.Murkok öz qəhrəmanlarını fərqində olmadığı əbədi və daima təkrarlanan zamana salır, mifoloji və tarixi zamanın kəsişdiyi

reallığı göstərir. Elə bu səbəbdən onun qəhrəmanları biri-birini başa düşmür, bir-birləri ilə müxtəlif zamanların insanları kimi davranırlar.

Nəhayət, magik realizmdə ikili reallığın mövcudluğu gerçəyi silsiləvi, çoxölçülü ilkin zamanda, real tarixi zamanı isə uydurulmuş dünyada, həyat üçün bütün mənasını itirən mifik dünyada özünü göstərir. Elə bu səbəbdən qeyd etmək olur ki, magik realizmlə bağlı əsərlər öz qanunları ilə yaşayır, gerçəkdə olmayan və ağlasığmaz hadisələr işığında açılır.

III fəslin sonuncu paraqrafı isə ***"M.Murkokun "Melnibonedən olan Elrik" və K.Abdullanın "Sehrbazlar dərəsi" romanlarında magik realizm müqayisəli-tipoloji aspektdə"*** adı altında təqdim edilir. Qeyd edildiyi kimi Elriklə bağlı silsilə romanlar magik realizmin prinsipləri üzərində qurulur. Magik elementlər əsərdə əksini tapan gündəlik reallıqla qarşılıqlı əlaqədə ortaya çıxır.

Elrik mürəkkəb personajdır. O, tənhadır və daima sıxılır. Elrik öz dünyasında yaddır, yaşadığı xalqın adət-ənənələrindən uzaq gəzir. Elrik əjdahalar adası kimi tanınan Melnibonenin sonuncu hökmdarıdır. O, sehrbazdır, sehrin, tilsimin gücü ilə yaşayır. Elrikin ikili xarakterini insan xislətində gizlənən xeyirlə şərin qarşıdurması kimi deyil, əksinə biri-birini yaradan gerçəklik kimi qəbul etmək lazımdır. Elrik ona xəyanət edən, onu öldürməyə çalışan əmisi oğlunu bağışlayır, silsilə romanların birində hətta öz hakimiyyətini ona təhvil verib gedir. Lakin sonrakı hadisələr onu düşmənə qarşı amansız olmağa vadar edir.

Elrikin daimi ümidsizliyi və çarəsizliyi onu məlum fentezi qəhrəmanlarından fərqləndirir. Müxtəlif magik qüvvələrlə üz-üzə gələn Elrik hər görüşdən sonra bir az da tənhalaşır və özünə çəkilir. Elrik Xeyir və Şər arasında qalır, gah birinin, gah da digərinin tərəfində vuruşur. Qara Qılıncın gücü ilə istənilən maneəni keçir, amma eyni zamanda da özü-özü ilə mübarizə aparır. Elrikin istəkləri ilə Şərin diktə etdikləri biri-birinə zidd qüvvə kimi ona təsir edir. Elrik mərhəmətli olduğu qədər də qəddardır. Onun bu ikili xüsusiyyəti yaxınlarına da təsir edir. Elrik bəzən düzgün qərar vermir, bəzən isə heç özü də istəmədən Qara Qılıncın təsirindən yaxınlarına xəyanət edir və ya onları öldürür. Elrik Xeyir və Şəri eyni zamanda özündə daşıyan personajdır. Bu baxımdan o, mahiyyət

etibarilə məhvə məhkumdur. Amma ona mənfi personaj da demək olmaz. Elrik heç vaxt var-dövlət arxasınca qaçmır, onun məqsədi sadəcə insan kimi yaşamaqdan başqa bir şey deyil.

Elrik həmçinin, M.Murkokun Əbədi Döyüşçüsünün təcəssümü, eyni ruhun dəfələrlə paralel dünyalarda doğula biləcəyi, həmişə Xaos və Kosmos arasında mübarizə aparmağa məhkum olan bir qəhrəmanıdır. Başqa sözlə, Xaosla Kosmosun əbədi və qaçılmaz döyüşünü təcəssüm edən, S.Rzasoyun da qeyd etdiyi kimi, bizim *"nizamsız" dünya kimi səciyyələndirdiyimiz nizamlı dünyamızın əsasını təşkil edən"*[35] bir bütövün özüdür.

"Azərbaycan ədəbiyyatının yeni obrazını"[36] formalaşdırmış Kamal Abdulla (1950) yaradıcılığı da bu baxımdan xüsusi maraq doğurur. Azərbaycan ədəbiyyatında eksperimentlərə imza atan, modernist və postmodernist ədəbiyyatın nümayəndəsi olan K.Abdullanın əsərləri müasir Azərbaycan ədəbiyyatının inkişafına təsir etmiş, onu yeni müstəviyə çıxarmışdır. Tamamilə doğru olaraq belə bir fikir də var ki, K.Abdulla yaradıcılığı *"müasir yaşam modelimiz üçün həyati əhəmiyyət daşıyan məlum və həm də məchul sirri bütün dərin qatlarına qədər çözməyə, aydınlatmağa yönəlmişdir"*[37]. K.Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi" romanlarının dərk edilməsində keçmişin müasir dövrlə, mifin gerçəkliklə sintezi xüsusi əhəmiyyət kəsb edir. K.Abdulla romanlarında insan həyatı o biri dünyanın, mifik zamanın simvolik şəkillərində təqdim olunur. "Sehrbazlar dərəsi" romanında magik realizmə məxsus simvolların, motiv və obrazların bir-birinə qarışması müəllifin əsərdə qaldırdığı suallara cavabla bağlıdır.

"Sehrbazlar dərəsi" romanında baş verən hadisələr bir çox məqamlarda formal məntiq qanunları ilə bir araya sığmır. Romanda zamanın empirik zaman ölçülərindən kənara çıxması müşahidə olunur.

---

[35] Rzasoy, S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. / S.Qarayev. – Bakı: "Nurlan", – 2008. – s.8

[36] Mustafa, F. Ədəbiyyatımızın Kamal Abdulla tarixi // Ədəbiyyat qəzeti. – 2020, 5 dekabr.

[37] Mustafa, F. Ədəbiyyatımızın Kamal Abdulla tarixi // Ədəbiyyat qəzeti. – 2020, 5 dekabr.

“Sehrbazlar dərəsi” romanı strukturuna görə bir neçə baxımdan maraqlıdır. Müəllif ilk növbədə xüsusi xronotop yaradır, romandakı zaman və məkanı üç mərhələdə göstərir. Birinci mərhələdə dirilər dünyası, ikincidə ölülər dünyası, üçüncü də isə əbədi Heçlikdən bəhs edir. Dirilər ilə ölülər dünyasını Sehrbazlar dərəsi birləşdirir. Sehrbazlar dərəsi ərzani zamanla səmavi zamana malikdir. Sonsuz və təkrarlanan səmavi zamanın sakinləri olan sehrbazlar ərzani zamanın sakinləriylə əlaqəyə girsələr də onların dünyasından çox uzaqda yaşayırlar. Elə bununla bağlı onların zamanından danışmaq çətinlik yaradır. Xacə İbrahimin ilk dəfə gördüyü gənc sehrbaz sonra Ağ dərviş, Səyyah sehrbaz isə intihar edən sehrbazların zərrəsidir. Sehrbazlar dərəsində günlərin bir-birini necə əvəz etdiyinin heç kəs fərqinə varmır, göy üzünün Səyyah sehrbaza yaxın olmasından nə qədər vaxt keçdiyi dəqiq məlum olmur.

“Sehrbazlar dərəsi”nin qəhrəmanları başqa aləmlərin kənarında mövcuddurlar, onlar hətta bəzi hallarda başqa bir dünyanın reallıqlarına keçir, orada alternativ yaşayışlarını tapırlar. Səyyah sehrbaz həm Karvanbaşıya, Xacə İbrahimə görünür, həm də ölülər dünyasıyla əlaqə yaradıb, cəllad Məmmədqulunu danışdıra bilir.

“Sehrbazlar dərəsi” romanında gerçək dünya ilə o biri dünya arasında ziddiyyətin mövcudluğu da danılmaz faktlardandır. Məmmədqulu, Karvanbaşı və Xacə İbrahimin yaşadığı yer real dünyanın prinsipləri əsasında qurulub. Lakin Səyyah sehrbaz, Ağ Dərviş irreal dünyada, başaq sözlə, mifoloji zamanda yaşayır. Bu baxımdan “Sehrbazlar dərəsi”ndə zaman təkrarlanan, silsiləvi və empirik zamanlara bölünür, magik zaman dairəvi, real zaman isə öləri insanın yaşadığı zaman kimi təqdim olunur. Sehrbazlar dərəsində zaman real dünyada olduğu kimi dövr etmir. Gerçək dünyada insanlar doğulur və ölür, günah edir və ərzani cəzalarını alırlar. Ağ dərviş, onun tərəfdarları Səyyah sehrbaz isə zamansız dəliklərə düşür, elə bu səbəbdən ərzani zamandan keçib əbədi dövr edən zamanda yaşayırlar.

Ağ dərvişə xas bu xüsusiyyəti M.Murkokun qəhrəmanında da görmək olur. Elrik də ölür, amma yenidən dünyaya gəlir, bu gəlişdə də keçmiş həyatını təkrarlayır. Döyüşür, Xeyrin Şər üzərində qələbəsi uğrunda vuruşur. Amma bu döyüş əbədi olaraq davam edir,

hərdən Xeyir, hərdən isə Şər qalib gəlir. Q.Quliyev Xeyirlə Şərin, Xaosla Kosmosun qarşılıqlı əlaqəsini nəzərdə tutaraq yazır ki, *"hər hansı bir xaos özünütəşkil qanununa tabedir; bu isə son nəticə etibarilə onu labüd şəkildə nizamlayaraq kosmosa çevirir. Hər bir kosmos da öz növbəsində xaos potensialına malikdir, bu isə gec-tez kosmosun xaosa çevrilməsinə səbəb olur"*[38]. Beləliklə, görmək olur ki, K.Abdullanın "Sehrbazlar dərəsi" romanında Şərq sufizmindən, M. Murkokun "Melnibonedən olan Elrik" romanında isə Qərb mistikasından gələn Xeyirlə Şərin biri-birini əvəz etməsi, eyni zamanda da gerçək dünyada əbədi olaraq bir yerdə yaşaması mühüm xətlərdən birinə çevrilir. Hər iki yazıçı Əbədi Döyüşü bir bütöv – *"kosmosda xaosun, xaosda kosmosun əlamətləri"*[39] kimi göstərir.

Tədqiqat işində aparılan araşdırmaların yekunu olaraq aşağıdakı elmi **nəticə** və ümumiləşdirmələr əldə edilmişdir:

– M.Murkokun romanları german-skandinav mifologiyasının reprezentasiyası, məlum folklor nümunələrinin yenidən işlənməsi ilə əlamətdardır. Bunlar german-skandinav mifologiyasına əsaslanan müəllif mifləri ilə reallığa yaxın olan mifoloji "gerçəkliyin" bir araya gəlməsinə yol açır.

– M.Murkok romanlarında skandinav miflərinin şərhi onu deməyə əsas verir ki, yazıçı skandinav mifologiyasından yararlanır və mifoloji dünyanın personajlarını fentezi janrına "köçürür". Skandinav miflərindən istifadə motiv, ideya və qəhrəman tiplərində özünü göstərir.

– M.Murkokun bədii aləmi milli-mədəni, eyni zamanda da universal arxetipləri bir araya gətirir. Elə bu səbəbdən əminliklə demək olar ki, M.Murkokun Əbədi Döyüşçüsü kainatın tələb etdiyi zaman doğulan və hər dəfə də Əbədi Düşmənlə döyüşə girən arxetipik obrazlardandır. Bu obrazlar döyüşür, mübarizə aparır, hər dəfə ölüb-dirilir və müxtəlif adlarla yenidən dünyaya gəlirlər.

– Fentezidə də postmodernist romanlarda olduğu kimi hadisələrin nə ilə bitməsinə deyil, necə təsvir edilməsinə önəm verilir. M.Murkokun da yaratdığı bədii dünyada fentezinin təhkiyə strukturu dəyişir, Cerri Korneliusla bağlı romanlar silsiləsi bir deyil

[38] Quliyev, Q. Ədəbiyyatda xaosmos // Azərbaycan jurnalı, – 2019, №6, – s.160
[39] Yenə orada.

bir neçə dünyanın sakini olmaq ideyasına yol açır. Bu isə öz növbəsində postmodernizmin həqiqətin çox ölçülü olması ideyası ilə paralellik təşkil edir.

– Müasir fentezinin modifikasiyası olan "Ana London" romanı avtobioqrafik janrla alternativ sənədli oçerki, realizmlə modernist təhkiyəni "kollektiv şüursuzluq" təlimiylə bir araya gətirir. Yazıçı bu əsərində insan təcrübələrini mifik-fantastik yaddaş kimi canlandırır. Gerçəkliyin realist təsviri ilə magik təsvirin çulğaşması fentezi janrını yeni müstəviyə çıxarır.

– M.Murkok romanlarında mətnin məkan konsepti – Multidünya və Sonsuz dünyalar sistemi Yerdən kənarla, zamana və məkana sığmayan, insan təxəyyülündən uzaq bir yerlə – arzular dünyası ilə bağlıdır. Bu sistemin mərkəzində qəhrəmanın çatmağa çalışdığı mifik Tanelorn şəhəri yerləşir. Tanelorn ideyası kainatın sakral mərkəzi kimi zaman və məkandan kənarda mövcuddur. M.Murkok Tanelornu gözəl və ecazkar dünya modeli kimi təqdim edir.

– M.Murkokun bədii dünyasında ikili reallıq və zamana səyahət magik realizmin prinsipləri əsasında reallaşır. Bu ilk növbədə gerçəklə təxəyyülün bir-birinə nüfuz etməsi və reallığı möcüzə, qeyri-adi hadisələrlə əlaqələndirmə şəklində özünü göstərir. "Bütün mahnıların sonu" romanının qəhrəmanı keçmiş əsrlərə səyahət edir, hər əsrə uyğun şəkildə davranır. "Qraf Brass" romanında ölülər və dirilər eyni bir dünyada yaşayırlar.

– M.Murkokun "Melnibonedən olan Elrik" və K.Abdullanın "Sehrbazlar dərəsi" romanlarının müqayisəli-tipoloji aspektdə təhlili onu deməyə əsas verir ki, "Sehrbazlar dərəsi" romanında zaman təkrarlanan, dairəvi və empirik zamanlara bölünür, mifoloji zaman sakral, real zaman isə öləri insanın yaşadığı zamanla şərtlənir. M.Murkokun Şahzadə Elriki də ölür, amma yenidən dünyaya gəlir, bu gəlişdə keçmiş həyatını təkrarlayır. Döyüşür və bu döyüş əbədi olaraq davam edir, hərdən Xeyir, hərdən isə Şər qalib gəlir. Hər iki yazıçı Xeyirlə Şərin əbədi döyüşünü varlığın bütövlüyünü göstərən bir hal kimi təqdim edir.

***Tədqiqat işinin əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:***


1. Dadaşov, C. Maykl Murkok yaradıcılığında bədii eksperiment: magik realizmə dair // "H.Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası". III Beynəlxalq elmi konfrans. – Bakı: Azərbaycan Dillər Universiteti, – 5-6 may, – 2020, – s.144-145.
2. Dadaşov, C. Maykl Murkok yaradıcılığında müasir fentezinin modifikasiyası // "H.Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası". IV Beynəlxalq elmi konfrans. – Bakı: Azərbaycan Dillər Universiteti, – 7 may, – 2021, – s.240-241.
3. Dadaşov, C. Maykl Murkok romanlarında mifoloji zaman və gerçək dünya // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), – 2023. № 3(123), – s.249-252.
4. Dadaşov, C. Maykl Murkok romanlarının mifoloji sistemində arxetip obrazlar // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2023. №14, – s.379-386.
5. Dadashov, J. The artistic embodiment of magical realism Michael Moorcock's creativity // Collected Papers LIX International Scientific-Practical conference «EurasiaScience». – Moscow, Russia, – February 15, – 2024, – p.229-231.
6. Dadaşov, C. Mifoloji zaman anlayışı və onun Maykl Murkok yaradıcılığında resepsiyası // Gənc tədqiqatçıların VII Respublika elmi konfransı. – Bakı: Azərbaycan Universiteti, – 15 mart, – 2024, – s.83-85.
7. Dadaşov, C. M.Murkok yaradıcılığında ikili reallıq və zamana səyahət // – Bakı: Qərbi Kaspi Universiteti, Elmi xəbərlər. Humanitar elmlər seriyası, – 2024. №1, – s.57-63.
8. Dadaşov, C. M.Murkok romanlarında skandinav mifləri ilə ədəbi paralellər // – Bakı: Azərbaycan Universiteti, İpək yolu, – 2024, №2, – s.99-106.
9. Dadaşov, C. M.Murkok yaradıcılığının spesifik xüsusiyyətləri: folklor-mifoloji köklərə qayıdış // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2024. №3, – s.348-355.
10. Dadashov, J. Interaction of fantasy and postmodernism in the creativity of Michael Moorcock // – Poland, Warszawa, Colloquium-journal, – 2024. №5(198), – p.29-32.

11. Dadaşov, C. M.Murkok yaradıcılığında yeni dünya modeli: Multidünya konsepsiyası // “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası”. VII Beynəlxalq elmi konfrans. – Bakı: Azərbaycan Dillər Universiteti, – 7 may, – 2024, – s.87-89.
12. Dadashov, J. Mythological time and the real world in Kamal Abdulla’s novel “The Valley of Wizards” // IX. International Social Sciences Congress. – Ankara: Ankara Haci Bayram Veli Universitesi, – 27-29 September, – 2024, – p.568-569.
13. Дадашов, Дж. Модификация современного фэнтези в творчестве Майкла Муркока // МН и ВО РФ. Федеральное государственное бюджетное образовательное учреждение высшего образования, «Владимирский государственный университет им. Александра Григорьевича и Николая Григорьевича Столетовых». Педагогический институт. Мир-Язык-Человек Материалы VII Международной научно-практической конференции. – Владимир, – 24 октября, – 2024, – с.87-95.
14. Dadaşov, C. M.Murkokun “Cerri Kornelius” romanlar silsiləsində gerçək və təxəyyül // IV. Uluslararası Bandırma Bilimsel Çalışmalar Kongresi/ Bandırma Onyedi Eylül Üniversitesi. Türkiye. – 18-20 Nisan, – 2025, – s.716-718.
15. Dadaşov, C. Magik realizmdə mifoloji zaman və paralel dünya // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” VIII Beynəlxalq elmi konfrans. – Bakı: Azərbaycan Dillər Universiteti, – 5-7 may, – 2025, – s.47-49.
16. Dadaşov, C. Kamal Abdullanın “Sehrbazlar dərəsi” romanında mifoloji və empirik zaman // Uluslararası Türk Dünyası Yazarları Sempozyumu – I. Kemal Abdulla. – Ankara. Türkiye, – 27 Ekim, – 2025. https://turkkulturu.org.tr/wp-content/uploads/2025/10/Program.pdf
17. Dadashov, J. Mythological time and the real world in Michael Moorcock’s Elric of Melniboné // Ужгородський національний університет, “Transcarpathian Philological Studies”, – 2026. No 46.

Dissertasiyanın müdafiəsi 25 iyun 2026-cı il tarixində saat 11:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 45411 işarə

Tiraj: 100